"Poqorelaya Plita": Kür çayının Xəzər dənizinə töküldüyü yerdən 12 mil şimal-şərqdə, dəniz dibinin yüksəlməsi nəticəsinə meydana gəlmiş ada olmuşdur.

"Kurinskaya kamen": Xəzər dənizində, Bakı arxipelaqının cənub qurtaracağında Azərbaycan məxsus ada olan "Kür daşı" adası nəzərdə tutulur.





**Çərşənbə, 26 noyabr 1919-cu il, nömrə 330**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 3 rəbiüləvvəl sənə 1338. 26 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## "FENOMEN" TEATROSU
### Anons

Pəncşənbə günü noyabrın 27-ndə kinomatoqrafın əzim və möcüznüma tamaşaları "Kip – Kim – Kep" (6 hissədə). İştirak edirlər 5 məşhur adamlar: Kip rolunu ifa edir atlet, əvvəlinci Amerika çempionu Bibi Karpet; Kim rolunu xalqın məhbubu olan Samson; Kep rolunu Etninka Akzianit. Baş dolandırıcı oyunlar tamaşaçıların oyun əsnasında bütün diqqətini tamaşaya cəlb edəcəkdir.

*T-362*

## SİRK "MODERN"
### Mübarizənin son günləri

Hamı mübarizələr qətidir. Çaharşənbə günü noyabrın 26-nda 1919-ncu ildə. Bu gün 3 cift pəhləvan mübarizə edir. 1-nci: Yermak – Gənc Əli; 2-nci: Kalişeviç – Muznik; 3-ncü: Staroşvili – Buyvolov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, tamam olacaqdır 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Sabah məşhur rus sportsmeni Yelizarovun 15 sənəlik yubileyi olacaqdır.

*14083*

## MÜSAVATIN ÜMUMİ İCLASI

"Müsavat" firqəsinin dekabr ayının 2-də Bakıda açılacaq ümumfirqə qurultayına hər yüz nəfərdən bir nümayəndə seçmək [üçün] işbu noyabr ayının 28-də cümə günü saat 10 tamamda Haşımovun mülkündə, "Müsavat"ın Bakı Komitəsində, Bakı firqə yoldaşlarının ümumi iclası vaqe olacaqdır. Şəhərdə olan bütün firqə üzvlərinin işbu iclasda hazır olmaları təmənna olunur. İclasa gələnlər özləri ilə bərabər firqə kartoçkalarını gətirməlidirlər.

Üçüncü dəfə elan edilməyə görə, bu iclas qanuni hesab ediləcəkdir.

*"Müsavat"ın Bakı Komitəsi*

*T-355*

## QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Mülkiyyə Baş Müfəttişliyindən**

Müdafieyi-Dövlət Şurasının 16 sentyabrda qəbul və təsdiq etdiyi Nizamnamə mövcibincə [Nizamnaməyə əsasən], Azərbaycanda yenidən ehdas edilən

[yaradılan] Mülkiyyə Müfəttişliyi təşkilatını tezliklə vücuda gətirib həyata tətbiq etmək xüsusunu, qüdrət və başarığımdan xaric olduğunu bilə-bilə bilməcburiyyə öhdəmə götürdüm.

Öhdəmə götürdüyüm bu məsuliyyətli təşkilatı tezliklə qurtarıb çoxdan işə başlamalı, gələn şikayətlərə öz vaxtında baxmalı və bu surətlə cüzi də olsa, xalq və vətənə bir xidmət göstərməli idik.

Heyif ki, bir tərəfdən vəziyyəti-hazirəmiz, digər tərəfdən müfəttişlik kimi ağır və məsuliyyətli bir vəzifəni dəröhdə edəcək [boynuna götürəcək] doğru, həmiyyətli, xalqçı və bacarıqlı adamların tezlik və asanlıqla tapılanmaması, təşkilatın gecikməsinə və bu üzdən bir çox şikayətlərin öz vaxtlarında baxılmamasına bais oldu.

Bu arzu edilməyən hala ancaq bu yaxınlarda hər tərəfə müəyyən müfəttişlər təyin edilərək nəhayət verildi. Azərbaycan hələlik altı mülkiyyə müfəttişliyinə bölünüb, hər birinə birər müfəttiş qoyuldu və bu gün Lənkəran və Quba müfəttişindən özgə hamısı öz vəzifələrinə başladı.

Quba, Lənkəran və Cavad qəzaları müfəttişi isə noyabrın 1-dən vəzifəsinə şüru edəcəkdir [başlayacaq].

*Mülkiyyə Baş müfəttişi:*
*Ömər Faiq [Nemanzadə]*

**Bakı qradonaçalnikindən**

Bakı və Balaxanı-Sabunçu qalabəyiləri [komendantları] ilə təhərri [axtarış] polisi müdirinə

İntizamsızlıqlar əsnasında qradonaçalstva daxilində ev komitələri təşkil edilmişlərdi. Bu ev komitələri özlərini rəsmi idarələr kimi tələqqi etmişlərdir [qəbul etmişlər]. Bu komitələr indiyə kimi davam etməkdədirlər. Evlərdə ərzaq təqsim etmək [bölüşdürmək], təmizliyə nəzarət yetirmək işlərinə mübaşir [məşğul] olan böylə komitələrin davamına tərəfimdən heç bir mane olmadığı kimi, qəti surətdə komitələrə zəbtiyyə [nizam-intizam] işləri ilə iştiğal etməyi qadağan edirəm. Böylə komitələr tərəfindən verilən bütün şəhadətnamələr ləğv və etibardan saqitdir [etibarsızdır]. Komitənin möhürləri bilatəxir [dərhal] alınmalı, istemalına [istifadəsinə] yol verilməyib, mənə təqdim edilməlidir. Mülk sahibləri ilə kirayənişinlərdən özlərinin xərclərindən ötrü cəm etdikləri paralar əxzi [mənimsənilməsi] ləğv etməlidir.

*Bakı qradonaçalniki vəzifəsini*
*ifa edən rotmistr Qudiyev*

## FRANSA VƏ İTALİYA İNTİXABATI MÜNASİBƏTİLƏ

Ələlümum Avropada və ələlxüsus Fransa və İtaliya həyati-siyasiyyəsində iki mühüm hadisə zühura gəldi: Fransa Məclisi-Məbusan intixabatında [seçkilərində] mühafizəkar hürriyyətpərvərlər (liberal konservatorlar) əksəriyyəti ehraz etdilər [əldə etdilər]; İtaliya Məclisi-Məbusan intixabatında sosialistlər qalib gəldilər.

Birincisində müxalifət tamamilə məğlub oldu; ikincisində müxalifət bütün qüvvəti ilə qalib gəldi. İştə, iki hadisə ki, Avropa həyati-siyasiyyəsinin amillərini təhlil etmək üçün kafi dərəcədə qiymət və əhəmiyyəti came bulunmaqdadır [özündə cəmləşdirməkdədir].





Fransa inqilabi-əziminin mahiyyət və künhünü [məğzini] xəta-alud [xətalı, səhv] bir surətdə tətbiq və tətəbbö edənlər [araşdıranlar], bu inqilabın Fransa demokratiyası naminə və hüquqi-bəşər mənafeyinə aid bir hadisə olaraq bildilər; Fransa inqilabını dünya inqilabına pişrov və pişbin [öncül, xəbərçi və gələcəyi göstərən] olduğunu dedilər.

Hökumətlər və millətlər həyatını məfkurəvi (ideoloji) bir dairədə görənlər unutmuşlardı ki, Birinci Napoleon Fransanı imperializm pəncəsində əzərkən, bundan ən böyük zərər görən Fransanın sərmayəsi, Fransanın "frankı" idi. Üçüncü Napoleona qədər davam edən Fransa həziməti-qəhriyyəsi [qəhredici məğlubiyyəti] Fransa demokratiyası üçün qarın doyurmaq və ac qal[ma]maq üçün mübarizə etməkdən ibarət olduğu halda, Fransanın orta sinif burjuaziyası üçün Fransa heysiyyəti-milliyyəsi, Fransa etibari-millisi məsələsi var idi.

İştə Fransa buna zidd gedən bonapartlara, buna zidd gedən cahangirlərə [imperialistlərə] elani-müxasimat etdi [düşmənçilik elan etdi]. Fransa burjuaziyası ilə Fransa aristokratiyası arasında müharibələr başladı, üsyanlar çıxdı, inqilablar oldu.

Fransa o zamanlar xarici bir həzimətlə [məğlubiyyətlə] ixtilal [inqilab] etmiş, xarici bir həzimətlə Fransa burjuaziyası daxilində inqilab çıxarmışdı.

Xaricdə məğlub olan Fransa, imperializmi daxildə burjuaziya qalibiyyəti ilə əvəz etmişdi.

O zamandan bəri Fransa həp burjua bir dairədə qalmış, mötədil sosialistlər də burjua bir simada səhneyi-siyasətdə amil olmuşdu.

Əcəba, neyçün bu böylə idi?

Çünki Fransanın demokratı da, sosialisti də həp milliyyətpərvər olmuşdu. Cahana meydan oxuyan bir Napoleonu Fransa doğurmuşsa, əlbəttə ki, Fransa sosialisti də öz qüdrəti-məsləkiyyə və fikriyyəsini doğrudan-doğruya aləmin səadəti üçün fəda edəmməzdi.

Hərbi-ümumidə Fransa sosialistləri müdafieyi-vətən naminə sükut etdilər; müxalifətlərini hərbin sonuna buraxdılar.

Fəqət, iştə hərbin sonu...

Fransa sosialistləri məğlub, Fransa milliyyətpərvərləri qalib.

* * *

Fransa Məclisi-Məbusan intixabatında sosialistlərin məğlub olması səbəbləri haqqında təfsilatımız bulunmadığından, şimdilik bir şeyi deyəmməyiz.

Fəqət bəzi həqiqətlərə görə bir nəticə istixrac edə [çıxara] bilərİz. Əvvəla, Fransanın ən çox sosialistlər mərkəzi Hərbi-ümumidə almanlar tərəfindən təxrib edilmişdir. Təxrib edilən bu vilayətlərin ədədi doqquza çıxır. Bu şəhərlər Fransada ən ziyadə sənaət [sənaye] və emalat mərkəzi olduğu kimi, bir çox da əmələ [fəhlə] və sendikalizm təşkilatını da havi bulunurdu [özündə ehtiva edirdi]. Bu gün Fransa intixabatında fransız sosialistləri və hətta ikinci beynəlmiləl sosialistlər də ən çox rəy [səs] bu şəhərlərdən almış və adəta, bu şəhərlər sosialist mərkəzi olmuşdu. Almaniya hüduduna yaxın olmaları etibarilə də bu şəhərlərin siyasi əfkari-ümumiyyəsi [ictimaiyyəti] həmişə sosialistlərin lehində bulunmuşdu.

Fransa Məclisi-Məbusan intixabatında mühafizəkar hürriyyətpərvərlər proq-

ramlarında bu təxrib edilmiş şəhərlərin almanlardan alınacaq təzminati-hərbiyyəyə [müharibə kompensasiyasına] görə inşa ediləcəyini elan etmələri, bittəb [təbii ki], intixabatda da leyhdar rəy almağa yardım etmişdi.

Müharibədə [qalib] gəlmiş Fransa, bu intixabatda iştirak edən sağ firqələr üçün bir çox propaqanda vasitələri təmin etmişdir. O cümlədən, məsələn, Rusiyada işlənilən və Fransa etibari-malisi [maliyyə krediti] ilə tədavül edən kağız pulların nağda təhvil edilməsini [çevrilməsini] ən böyük qayə bilərək Kolçak və Denikin qüvayi-əsgəriyyəsinə [ordularına] müavinət edilməsinə tərəfdar olan firqələr, əlbəttə, intixabatda da bir üstünlük qazana bildilər.

Bu propaqanda vasitələrinin həqiqətdə, əcəba, bir mənası varmı idi? Hər halda, bu da bir böyük məsələ olmaqla bərabər, sağ tərəfi tutan fransız firqələri zügürt [müflis] Denikin və Kolçakla, varını-yoxunu qeyb etmiş Almaniyadan bu pulların alına biləcəyinə hələlik inanmaqdadır.

Digər tərəfdən, Fransa sosialistlərinin intixabatda məğlub olmalarında sosialistlərlə sendikalistlər arasındakı mücadilə də təsir etmişdir. Fransada sosialistlərlə sendikalistlər arasında tarixi bir münaqişə vardır. Bu iki cərəyan həmişə yekdigərlərinə müariz [bir-birinə zidd] olmuşdur.

Binaənileyh [ona görə], intixabatda səslərin dağılmaması üçün birləşmələri lazım gələn bu iki firqə ayrı qaldıqları üçün tənasübi üsul ilə yapılan intixabatdan qalan rəyləri sağ firqələr almışdır.

İştə, bu kimi həm siyasi, həm də texnik səbəblər Fransa intixabatını sağ tərəfin lehinə çıxarmışdır.

Əcəba, bu intixabat nəticəsinə görə Fransa siyasətində nə təbəddülat [dəyişiklik] ola bilər?

Biz bu xüsusda mütaliəmizi [fikrimizi] ancaq şu surətlə xülasə edə bilərik ki, Fransa özünə aid mənafeyini təmin edə biləcək bir siyasətdən başqa, dünya məsələlərinə nüfuz edə bilməsi mümkün deyildir.

Binaənileyh, bu intixabatın ən ziyadə Fransa həyati-siyasiyyəsində bir təsiri ola biləcəkdir.

İtaliya intixabatına gəlincə, bunun əhəmiyyəti pək böyükdür. İtaliya birinci dəfədir ki, böylə bir təhəvvülat [dəyişiklik] daxilinə girmişdir. İtaliyada milliyyətpərvərlər məğlub olmuşdur.

Onların yerinə sosialistlər qalib gəlmiş və [Məclisi-]Məbusana 138 məbus keçirmişlərdir.

Bundan başqa, radikal cümhuriyyətpərvərlər də intixabatda olduqca rəy almışlardır.

Məclisi-Məbusanda bu son firqənin nə dərəcədə bir qüvvəti təmsil edəcəyini şimdidən təyin edəmməzsək də, hər halda, İtaliya Parlamanında təsirləri olacaqdır.

Radikal cümhuriyyətpərvərlərin xarici siyasətdə bir çox mülahizələri vardır. Bu firqənin başçısı olan Colitti Almaniya ilə yenidən ittifaqa tərəfdardır. Mümkündür ki, bu təzə İtaliya intixabatı yenidən Almaniya-Avstriya-İtaliya ittifaqı əmələ gətirməyə təsir etsin.

Şu halda Versal Konfransına İtaliyadan bir zərbə gəlməsi məmuldur [gözlənilir].





İtaliyada əksəriyyəti ehraz edən bu sol firqələr Almaniya ilə əqd edilən müsalihəyə [imzalanan sülhə] də tamamilə müxalif olub, təzminati-hərbiyyə alınmasına da ziddir.

İtaliya Məclisi-Məbusanı Versal Sülh Konfransında əqd edilən müahidəni [sazişi] müzakirə edərkən, sosialistlər şübhəsiz müxalif olacaqlar və bəlkə də, təsdiq etməyəcəklərdir. İtaliya sosialistləri Rusiya ümuruna [işlərinə] müdaxilə edilməsinə pək soyuq baxdığı kimi, Rusiyada əmələ gəlmiş millətlərin istiqlaliyyətlərinin tanınmasına və Denikin, Kolçaka qarşı rus demokratiyasının hüququnun təmininə tərəfdardır.

İştə, Fransa və İtaliya intixabatı yekdigərlərinə zidd bir nəticə ilə qurtarmaqla bərabər, əhvali-ümumiyyeyi-siyasiyyəyə [ümumi siyasi vəziyyətə] də təsiri yekdigərlərinə zidd bir surətdə görükəcəkdir.

Baxalım ayineyi-dövran daha nələr göstərər.

*Ə[hməd] H[əmdi] Qaraağazadə*

### TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz mövqifi tərəfindən alınmışdır)*

**24 təşrini-sani**

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Narva cəbhəsində yürüşümüz müvəffəqiyyətli bir surətdə kəsbi-dairə etməkdədir [genişlənməkdədir]. Narvadan cənuba bizim hissələrimiz dəmiryol xəttini kəsərək 160 əsir, 2 mitralyoz almışlardır. Yürüşümüz müvəffəqiyyətlə davam edir.

Kiyev dairəsində bizim hissələrimiz yürüşə keçərək Kiyevdən şimala bir neçə kənd işğal etmişlərdir.

Nejin dairəsində bizim dəstələrimiz yürüşə keçərək Kiyev-Voronej dəmiryol xəttinin [boyunda] düşməni cənuba sıxışdırmalarında davam edirlər.

Suma cəbhəsində yürüş edən hissələrimiz Putivlin bir neçə fərsəx şərqinə çatmışlardır.

Sudja cəbhəsində bizim hissələrimiz bir mövqif [stansiya] və bir neçə kənd işğal etmişlərdir. Yürüş davam edir.

Belqorod cəbhəsində tərəfimizdən Solntsevo mövqifi və Kursk-Xarkov dəmiryolundan şərqə tərəf bir neçə kənd işğal edilmişdir.

Valuysk dairəsində Staro Oskol yaxınlığında vuruşmalar getməkdədir.

Liski cəbhəsində bizim hissələrimiz Liskidən bir neçə fərsəx şimala vuruşmadadır.

Novoxopyor dairəsində tərəfimizdən Novoxopyorun cənub-qərb və cənubunda bir neçə kənd işğal edilmişlərdir.

Volqa ilə Don arasında xırda vuruşmalar vardır. Tsaritsın dairəsində vuruşma ilə tərəfimizdən Volqa sahilində olan Raçinovka kəndi işğal edilmişdir.

Hacı-Tərxan cəbhəsində Krasnı Yardan 50 fərsəx şimal-şərqə Telyaçini işğal edib əsir, 2 top və 5 mitralyoz almışız.

Uralsk-Quryev dəmiryolunda yürüşümüz davam edir.

Omsk dairəsində qırmızı qoşunlar düşməni qovmaqda davam edərək, Omskdan 115 fərsəx şərqə Falunya mövqifini işğal etmişiz.

Əlavə, alınan məlumata görə, Tara şəhərinin tərəfimizdən işğalı əsnasında 1000 nəfər əsir, 2 top, 2 ticarət vaporu, 5 barj, 12 min pud taxıl və başqa qənimətlər alınmışdır.

**Xivədə inqilab hərəkatı**

Daşkənd – Xivədə inqilab hərəkatı artmaqdadır. Əhali Şura Türküstana iltihaq etməyi [qoşulmağı] arzu edirmiş.

**İngiltərə əmələlərinin qələbəsi**

Beloostrov – İngiltərə qəzetələri əmələlərin Londonda şəhər intixabatında qələbə çaldıqlarını xəbər verirlər.

**Hindustanda inqilab hərəkatı**

Daşkənd – Hindustanda inqilab hərəkatı yatırılmışsa da, hökumət əleyhinə tədhiş [terror] artmaqdadır. İnqilab ruhu ilə ruhlanmış kütlə hökumət acentələrinə, orduya bombalar atır, dəmiryol körpülərini patladır, qoşun anbarları ilə malları yandırırlar.

**Bermondtun inhizamı [məğlubiyyəti]**

Helsinqfors [Helsinki] – Litvada Bermondt həzimət [məğlubiyyət] üstündən həzimətə uğrayır. Bermondt qoşunları arasında külli miqdarda ölən və yaralanan vardır. Almaniya qoşunları Litvanı buraxmışlardır.

**Suxumda üsyan**

Saratov – Suxumda mühafizə bölüyü üsyan etmişdir. Üsyançılarla hökumət qoşunları arasında üç gün davam edən vuruşmalar vaqe olmuşdur. Üsyan külli tələfat ilə yatırılmışdır.

**Kəndçilərin Kuban və Donda qiyamı**

Saratov – Kubanlıların cəbhədən getməkləri davam edir. Kuban və Don mahallarında denikinçilərin taxıl və qaramalı həcz [müsadirə] etmələrindən dolayı kəndçilər qiyam etməkdədirlər.

**Çərkəsdə talan**

Qomel – Çərkəsdə olan axırıncı yəhudi talanından 900 adam həlak olmuşdur.

**Kiyevdə həyəcan**

Qomel – Sərvətdarlar dəhşət içində Kiyevdən çıxmaqdadırlar. Kənd əhalisi Denikin paralarını götürməkdən imtina edir. On minlərlə işsiz adam vardır.

## QƏZETƏLƏRDƏN

**Yeni cümhuriyyətlər və Sülh Konfransı**

Səneyi-cari 7 həziranında [cari ilin 7 iyununda] Sülh Konfransına verilmiş bəyanat nöqteyi-nəzərində qalaraq Azərbaycan, Şimali Qafqaziya, Estoniya, Gürcüstan, Kuban, Latviya, Litva və Ukrayna müstəqil cümhuriyyətlərinin müvəkkil nümayəndələri 8 təşrini-əvvəldə [oktyabrda] Sülh Konfransı rəisi J. Klemansoya bir məktubla müraciət etmişlərdir. Məktubun məzmunu bərvəchi-atidir [aşağıdakı kimidir]:

*"Düvəli-Müttəfiqə Şurayi-Alisi [Müttəfiq dövlətlər Ali Şurası] təşəkkül etdiyi andan bəri, 1917-ci sənə təşrini-əvvəlində yıxılmış sabiq Rusiya imperatorluğunun süqutu dolayısı ilə saheyi-həyata çıxmış yeni dövlətlər vücudu əmri-vaqe[si] [faktı] qarşısında qalmışdır. Bu yeni dövlətlər hüquqi-miləl prinsiplərinə tövfiqən [uyğun olaraq] təşəkkül edib və həqiqətdə geniş demokratik əsasları üzərində təəssüs etmişlərdir [qurulmuşlar]. Onlar şu vəchlə [bu surətlə] Düvəli-Müttəfiqə tərəfindən elan edilmiş prinsipləri saheyi-vücuda çıxarmışlardır. Bu dövlətlər təşəkkül etdiyi zamandan bəri, müsəlləh qüva [silahlı ordu] ilə istila etmək istəyən müxrib [dağıdıcı] bolşevik və irticaçılara qarşı müdafiədə bulunmağa məcbur olmuşlardır.*

*Bu iki firqə kəndi aralarında etdiyi qanlı müharibələrə baxmayaraq, yeni demokratik dövlətlər üzərinə təərrüzlər [hücumlar, təcavüzlər] yapır, ya ki, təərrüz etməyə hazırlanırlar. Axırıncılar maddi və mənəvi müdafiəyə möhtac bulunduqlarından, onların istiqlalını rəsmən təsdiq edib və hər bir təərrüzə qarşı onlara beynəlmiləl müavinət göstərmək lazım idi.*

*Lakin şu dövlətlərin cümlə bəyanat və istidalarına [xahişlərinə] baxmayaraq, onların nə istiqlalları təsdiq edildi və nə onlara beynəlmiləl müavinət göstərildi. Biləks [əksinə], qəbul edilmiş etilaf [razılaşma] və qərar üzrə Kolçak, Denikin orduları bolşeviklərlə mübarizə etməkdən ötrü əzim [böyük] miqdarda maddi müavinətlər aldılar ki, çox zaman onlardan istifadə edərək Rusiya hüdudunda təşəkkül etmiş milli dövlətlər əleyhinə əməliyyatda bulunurlar. Şu vəchlə bu millətlərin təşkilat yolunda sərf etdiyi hümmətlər və həqiqi demokratik üsulu tətbiq etməkdən ötrü eylədiyi səylər Müttəfiq və Müttəhid [Birləşmiş] dövlətlər tərəfindən təchiz edilən qüvvələrin məhvedici təhdidatı altında bulunur. Bu qüvvələrin işğal etmiş olduqları Şimali Qafqaziya və Ukraynada yapdıqları ədəmi-intizam [intizamsızlıq] onların istilalarının nəticələrinə gözəl birər bürhan [dəlil] ola bilər."*

Bə'd [sonra] məktubda denilir:

*"Bu yeni dövlətlərin istiqlal məsələsini bilatəxir [dərhal] həll etmək və Rusiya daxili böhranının aqibətini gözləməmək lazım idi. Zira Rusiya işlərinin vəziyyəti kimə məlum isə, o bilir ki, şu böhran uzun çəkəcək və bu, ya o firqənin hərbi müvəffəqiyyətləri ilə həll ediləmməyəcəkdir. Əlaveyi-bərin [bundan əlavə], bu dövlətlər gələcək Rusiyanın iqtisadi inkişafına kəndi məmləkətlərində təminat verib və Düvəli-Müttəfiqə və Müttəhidənin şu yerlərdə olan mənafeyini də təmin etmişlərdir."*

Məktub atidəki [aşağıdakı] sözlərlə bitir:

*"Bu dövlətlərin vəziyyəti-beynəlmiləl[i] tənzimini [beynəlxalq statuslarının qaydaya salınmasını] yenidən təxirə uğratmaq ancaq şimdiki övzasını [vəziyyətlərini] çətinləşdirəcəkdir. Binaənileyh [ona görə], bizim düşüncəmiz böylədir ki, bu yeni dövlətlərə müavinət göstərmək Düvəli-müəzzəmənin [Böyük dövlətlərin] kəndi mənafeyinə də xidmət edərdi. Bu dövlətlər təşkilata müstəid [qabil] olduqlarına bir çox isbatlar göstərmişlərdir və onlar səmimiyyəti-tammə ilə [tam səmimiyyətlə] çalışırlar ki, sabiq Rusiyanın qeyri dövlətlərə olan təəhhüdatının [öhdəliklərinin] kəndi öhdələrinə düşən hissəsini ifa etsinlər.*

*Prezident əfəndi! İşbu təsəvvüratı [düşüncələri] və xalqımızın Cəmiyyəti-Əqvam təriqilə [Millətlər Cəmiyyəti vasitə-*

*silə] başqa azad və mədəni millətlər ailəsinə daxil olmaq səmimi arzusunu nəzərə alaraq, biz yenidən sədamızı yüksəldərək sizdən rica ediriz ki, Düvəli-Müttəfiqə Şurayi-alisinə bizim atidəki istidalarımızı [aşağıdakı xahişlərimizi] bəyan edəsiniz:*

*1) Fövqdə məzbur [yuxarıda qeyd edilən] cümhuriyyətlərin hər birinin müstəqil dövlət kimi qəbul və etiraf [təsdiq] edilməsi;*

*2) Və bu surətlə etirafdan hasil olan nətayic [təsdiqdən irəli gələn nəticələr] qəbilindən olmaq üzrə məzkur [deyilən] dövlətlərə aid ərazi, mali, iqtisadi və qeyrə kimi məsailin müzakirəsinə şüru edilməsi [məsələrin müzakirəsinə başlanması]."*

**Suriya məsələsi**

Avamlar Kamerasında Balfur Suriya haqqında nitq irad edərkən [nitq söylərkən] söyləmişdir ki:

*"Əcnəbi dövlətlər mətbuatında övza [vəziyyət] yanlış surətdə tərsim [təsvir] edilərək, mövcibi-ixtilaf [ixtilafa səbəb] olan xəbərlərin nəşr edilməsi görülmüşdür. Buna bir intəha [son] qonulmalıdır.*

*Qeyd edirlər ki, Böyük Britaniyanın Suriyanı işğal etməsi onun o məmləkətdə hökmran bir dövlət olaraq qalacağını andırır. Bu sözlərin içində bir dənə də olsa, doğrusu yoxdur. Bu, həqiqətə büsbütün müğayirdir [ziddir]. Ərəbistan mandatı ala bilən hər bir Qərb dövləti qarşısında əzim müşkülat [böyük çətinliklər] durduğu şübhəsizdir. Fəqət o müşkülatı olduğu vəchdən daha artıq göstərmək yarar bir iş deyildir. Şimdi ərəblər yüz sənələr içində birinci dəfə olaraq hərəkati-kəbirədə [böyük bir hərəkatda] böyük rol oynamışlardır. Onlar Düvəli-mötəlifə [Antanta dövlətləri] ilə ittifaq yapıb, Britaniya əsakiri [əsgərləri] ilə yaxın və sadiq dost olmuşlardır. Onlar kəndilərinin sədaqətlərini, qəhrəmanlıqlarını və qüvvələrini göstərdilər və ərəb ünsürünün şərəf və etibarı dərəcələrcə yüksəlmişdir. Mən qəviyyən ümid edirəm ki, ərəblərin böyük mədəniyyətlərini ehya edilmiş [canlandırılmış] görəcəyiz. Suriya üstündə İngiltərə ilə Fransa arasında heç bir dürlü müraqibə [rəqabət] yoxdur və ola da bilməz və gələcəkdə qarşımıza çıxa bilən müşkülatı həll etmək üçün müttəfiqimiz ərəblərin ehtiramını riayət etməklə Fransanın dostanə yoldaşlığını arzu ediriz."*

**İngiltərənin Misir siyasəti**

Balfur nitqində söyləmişdir ki:

*"Cahan müharibəsinin Misirə yetirdiyi xəsarət, dünyanın başqa nöqtələrinə yetişən xəsarətlər qədərdir, mən söylərdim ki, bütün cahana yetişən xəsarətlərin həpsi ilə bərabərdir. Bu etiqaddayam ki, işbu gərginli vəziyyətə intəha qoyulacaqdır. General Allenbinin zühura çıxmış vəziyyət məsələsi ilə iştiğal etməsi [məşğul olması] mənim etiqadımı bir qədər də təqviyə edir [gücləndirir]. Zira o, qarşısında durduğu məsələni kamalıınca anlayır. Bizim nəzərimizcə, Misir, Ədən, Sudan və kanal məsələləri bir tənivahidin [bütöv bir orqanizmin] ayrılmaz hissələri kimidirlər. Bu yerlərdə İngiltərə öhdəsinə götürdüyü vəzifələrdən imtina etməyəcəkdir. Britaniya hakimiyyəti orada mövcuddur və şu hakimiyyət saxlanacaqdır və heç kəs nə Misirdə və nə Misir xaricində Britaniya hökumətinin işbu əsaslı prinsipi barəsində yanlış fikirdə olmamalıdır.*

*Müsaidənizlə, əlavə edəcəyəm ki, Misirin yerli əhalisini hökumətlə yaxınlaşdırmaq üçün biz hər dürlü vəsilələrlə [vasitələrlə] səy edirik. Biz istəyirik ki, bu qədim məmləkətin əhvalını yaxşılaşdıraq. Hal-hazırda orada bir çox ixtilaflar vardır. Onlar qeyri-mümkün arzu bəsləyirlər. Əgər şu arzular saheyi-həyata çıxmış olsalar, onun yalnız İngiltərəyə sui-təsiri olmayıb Misir əhalisinin bir çoxu üçün də fəna nəticələri çıxacaqdır.*

*Bir xeyli zaman irəli hökumət bəyan etmişdi ki, övzanı [vəziyyəti] məhəllində [yerində] təhqiq etmək üçün lord Milnerin sədarəti altında Misirə bir komisyon göndərilir. Hökumət şu siyasətin üstündə durmuşdur və nə qədər ki, Təhqiq Komisyonu tərəfindən bəyanat alınmamışdır, mən bir qanun projesi və tənzimat barəsində müəyyən bir fikir söyləyə bilmərəm. Mən zənn edirəm ki, Misir əhalisi bizim, məmləkətdə islahat yapmaq xəyalında olduğumuza inanarlar."*

## İRAN İŞLƏRİ

**Gilan və Təvaliş hakimi**

"İran" qəzetəsinin verdiyi məlumata görə, hökumət tərəfindən Gilan və Təvaliş hakimliyinə (general-qubernatorluğuna) Əhməd Azəri təyin edilmişdir. Yeni hakim kəndi vəzifəsini ifaya şüru etdikdə [başladıqda], məzkur [adı çəkilən] əyalətlərin əhalisinə müraciətən bir bəyannamə intişar [nəşr] etdirib, onları cəngəllilər ilə mübarizə etməkdə hökumətə köməyə dəvət edir. Cəngəllilərin bu vaxta qədər dinc əhaliyə olmazın əziyyət və azar etdiklərini göstərərək, Əhməd Azəri həman quldurlar ilə mübarizədə hökumətə müavinətdə bulunanlara böyük mükafat və hökumətin mərhəmətini vəd edir. Quldurlara müsaidət [kömək] göstərmək qəsdində bulunmaq istəyənlər isə böyük cəza və tənbehə düçar olacaqlardır.

**Urmiyədə türk qoşunları**

Yenə həman qəzetənin yazdığına görə, neçə gün əqdəm [qabaq] 150 nəfərdən ibarət bir dəstə türk qoşunu Urmiyə şəhərinə varid olmuşdur [gəlmişdir]. Həmin xəbəri dərc etdikdən sonra qəzetə əlavə edir ki, bu dəstənin vürudu [gəlişi] və məqsədi haqqında və həmçinin onun Urmiyədə qalacağı və ya övdət edəcəyi [geri qayıdacağı] haqqında hələlik heç bir məlumat alınmamışdır. Bu barədə təhqiqat və müfəssəl məlumat almaq üçün lazımi yerlərinə müraciət olunmuşdur.

## DAĞISTAN CƏBHƏLƏRİNDƏ

Tiflisdə nəşr edilən "Volnı qorets" qəzetəsinin xüsusi müxabiri Dağıstan cəbhələri haqqında zirdə [aşağıda] dərc etdiyimiz məlumatı verir:

**Manas cəbhəsində**

Təşrini-saninin [noyabrın] 7-də Könüllü ordunun süvarə və piyada bölükləri Manas tərəfindən Qarabudaxkəndi üzərinə hücuma başlayıb, gündüz saat 2 radələrində Qarabudaxkəndini işğal

etdilər. Məzkur [adı çəkilən] kənd əhalisinin bir hissəsi qabaqcadan təxliyə edilmiş və bir hissəsi güclə Könüllü ordu tərəfindən səfərbərliyə alınmışlardır. Bunlar təşrini-saninin 8-də Qubden kəndinə yürüş edib, gündüz saat 12-də oranı da işğal edərlər. Qubden kəndi əhalisi tərəfindən beş nəfərdən ibarət ağ bir bayraqla elçilər göndərilirsə də, bunlar Könüllü ordu nəfəratı [əsgərləri] tərəfindən parça-parça doğranmışlardır. Könüllü ordu nəfəratı Qubden kəndinə daxil olduqları halda, qubdenlilər onlarla vuruşmağa girişmişlərdir. Vuruşma əsnasında hər iki tərəf külli zayiat vermişlərdir. Qubdenlilər kəndi boşaltmağa məcbur edilmişlərdir.

Təşrini-saninin 9-da Könüllü ordu Daşlaqar və Boynak kəndlərini işğal etmişlərdir. Təşrini-saninin 10-da Levaşi üzərində iki təyyarə görünmüş və təyyarələrdən Levaşi kəndinə 6 bomba atılmışdır ki, kənd əhalisindən heç bir kimsəyə zərər yetirməmişdir.

Təşrini-saninin 11-də dağıstanlılar qüvvə alaraq yürüşə keçmişlərdir. Bütün alınan kəndlər Könüllü ordudan geri alınmışlardır. Dağıstanlılar tərəfindən Qubden kəndi geri alındıqda 195 kazak əsir alınıb və Qarabudaxkəndi geri alındıqda 500 puda qədər buğda əhalidən alınmış, bir çox əşya dağıstanlılar əllərinə keçmişlərdir. Manas vuruşmalarından sonra əzaları [orqanları] kəsilmiş dağıstanlıların meyitləri tapılırdı.

**Dərbənd cəbhəsi**

15 təşrini-sanidə Könüllü ordu Qara dənizdən atılan top atəşləri altında böyük qüvvə ilə yürüşə başlamışlardır. Dağıstanlılar Rojel kəndinə çəkilmişlərdir.

Təşrini-saninin 17-də dağıstanlılar Dərbənd üzərinə yürüşə başlamışlardır. Buraya düşmən qeyri cəbhələrdən külli miqdarda qüvvə cəm etmişdir.

Dərbənd cəbhəsində Dərbənd ilə Abaşlı arasında düşmən təyyarəsi dağıstanlılar tərəfindən vurulmuşdur. Təyyarəçilərdən qaçıb gizlənməyə müvəffəq olmuşlardır. Təyyarə parçalanmışdır.

**Əlixanovun qərarı**

Levaşidən verilən xəbərlərə görə, Avar mahalını əlində saxlayan və Denikinin məşhur tərəfdarlarından olan avarlılar arasında təğəyyürat [dəyişiklik] olduğu üçün öz canının təhlükədə olduğunu görən zabit Kaytmas Əlixanov Xunzax qalasından Teymurxanşuraya fərar etmişdir.

**Kazaklar əsir almayırlar**

Bütün əsir düşmüş dağıstanlılar bilatəxir [dərhal] güllələnirlər. Dağıstanlılar tərəfindən dava hərəkatı zamanında 2 polkovnik, 48 zabit və 1500 kazak əsir alınmışdırlar ki, bunlar kəndlərdə yerləşdirilmişlərdir. Hərgah dağıstanlıları güllələmək davam edəcək olarsa, bunlar da güllələnməyə məhkum olacaqlardır.

## ZƏNGƏZUR HAQQINDA MÜZAKİRAT

Tiflisdə nəşr olunan "Ponedelnik" qəzetəsi yazır:

*"Xatisov, Nəsib bəy Yusifbəyli, Gegeçkori, Amerika və İngiltərə nümayəndələrinin iştirakı ilə Zəngəzur haqqında bir neçə şura vaqe olmuşdur.*

*Şurada mənfəətdar tərəfeyn [maraqlı tərəflər] məsələni ənvai [müxtəlif] nöqteyi-nəzərlə aydınlaşdıraraq, gərək Zəngəzur hadisatı və gərəksə orada hasil olmuş əhvali-hazirə haqqında lazımi məlumat təqdim etmişlərdir.*

*Gegeçkori və Düvəli-müəzzəmə [Böyük dövlətlər] nümayəndələrinin ehtimamları [səyləri] ilə müzakirələr nəticəsində sülh zəmini hazırlanmış və tərəfeynin güzəştdə bulunmalarına mövzi [yer; imkan] bulunmuşdur.*

*Məsələnin dostluq təriqilə [yoluyla] həll edilməsinə ümid vardır. Bu xüsusda olan saziş və etilaf [razılaşma] nəticələri bu günlərdə nəşr ediləcəkdir."*

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

– Maarif nazirinin Türk Opera və Dram Cəmiyyəti təşkili haqqındakı təqriri isteması [rəsmi müraciətinin dinlənilməsi] nəticəsində qərara alınmışdır:

1) Maarif nazirinin Dövləti Türk Opera və Dram Cəmiyyəti təşkili haqqındakı qanun layihəsi təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

2) Maarif Nəzarəti ixtiyarında olan rus kitabları alınması üçün istiqrazdan 200 min manat məzkur [deyilən] məqsəd üçün sərf edilməsinə icazə verilsin.

– Maliyyə nazirinin, Kerenski pulların dövləti kassalarda [dövlət kassalarında] alınması məcburiyyətinin ləğvi haqqındakı təqriri isteması nəticəsində, Azərbaycan dövləti kassalarında fəqət [yalnız, sadəcə] Azərbaycan Cümhuriyyəti paraları, Bələdiyyə İdarəsi bonları, Xalq Təsərrüfatı bonları və Zaqafqaziya Komissarlığı tərəfindən buraxılmış pulların qəbul və mübadiləsi icbari olması qərara alınmışdır.

– Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin xidmətdən əzl edilən məmurinə [işdən çıxarılan məmurlara] maaş verilmək haqqındakı təqriri isteması nəticəsində, Nəzarətdən çıxarılacaq məmurinə siyahıları Məclisi-Məbusan tərəfindən təsdiq edilmədiyindən naşi [ötrü] ixtiyarındakı istiqrazdan yarım ay məvaciblərinin verilməsi qərara alınmışdır.

– Daxiliyyə nazirinin Cümhuriyyət daxilinə gətiriləcək və Cümhuriyyətdən çıxarılacaq mallardan Bələdiyyə İdarəsi nəfinə [xeyrinə] pud vergisi alınmasına icazə vermək haqqındakı təqriri isteması nəticəsində nizamnamənin təsdiqi qərara alınmışdır.

## MİLLİLƏŞMƏK

**- 3 -**

Qardaşımız Fərhad Ağazadə Bakıda vətəndaş erməni, yəhudi və özgə dükanlarının lövhələri üzərində yazılan türkcələrin mənasızlığından, biçimsizliyindən şikayət edir. Lakin mən onlardan daha betərlərini, daha yamanraqlarını gördüyüm halda yenə şükr edirəm. Çünki onlar başardıqları qədər yaxşı-yaman bir türkcə yazmışlardır. Amma başlarında hörmətli müəllimlər, bilikli həkimlər, adlı

mühəndislər, şanlı generallar olan idarələrimizin çoxunun qapıları üstündə türkcə ya heç yox və ya olanları da ilan-qurbağa şəkillərindən fərq edilməyir.

Hələ son çağlarda açılan general-qubernatorluq kimi idarələrin rəsmi kağızlarında – özgə idarələrdə xala xətrin qalmasın deyə yazılan – türkcə ünvanlardan əsər də yoxdur.

Demək ki, inşallahur-rəhman, dala-dala doğru tərəqqi etməkdəyiz və böylə tərəqqi etdikcə də idarələrin milliləşdirilməsi söz və vədi başda əyləşən ağaların yadlarından çıxmaqdadır. Lakin burasını yaxşı qanalım ki, ağalar yadlarından çıxardıqlarını xalq yaddan çıxarmır, ancaq səbr edir.

Xalq qan bahasına aldığı istiqlalı bizim kefimiz üçün yox, öz mənfəətinə, öz muradına xidmət edər fikri ilə can müqabilinə [canı bahasına] mühafizə edir.

Xalq mühafizə etdiyi hökumətin dilini, yazısını təbii, öz dili, öz yazısı olmasını istər və bunu istəməkdə dünya qədər haqqı vardır.

Xalq öz istiqlalı vaxtında da, Rusiya istibdadı vaxtında olduğu kimi, rus dilini bilmədiklərindən ötrü idarə qapılarında saatlarca gözləməyə, həqarət görməyə daha artıq səbr edəmməz.

Paytaxtda müsəlman bəkçilərinin (dvornik) taçkaları [arabaları] üzərinə təzədən rusca yazmaq masxaralıqlarına kimsə rahat ürəklə baxammaz.

Hər saat, hər dəqiqə xalqla təmas edən, görüşən, böyüklərin müəllimləri yerində olan polis məmurlarının Azərbaycan mənfəəti ilə əsla əlaqəsi olmayan, dil bilməz, əxlaqsız, əhvalı, keçmişi qaranlıq bir para adamlardan təyin edilməsinə xalq daha ziyadə tab gətirəmməz.

Öz Cümhuriyyət idarələrimizə verilən türkcə ərizələrin rusca yazılmadığından ötrü rədd edilməsi Azərbaycan adına ləkədir.

Hürriyyətimizi, istiqlalımızı candan istəyirsək, Azərbaycan dilinə, Azərbaycan milli ədəbiyyatına, Azərbaycan xalqına qiymət verməli, hörmət etməliyiz.

İdarələrimizin birdən milliləşdirilməsinin çətin olduğu məlum. Bununla bərabər, bu çətinlik yavaş-yavaş başlamamıza bəhanə olammaz. Maarif və Daxiliyyə Nəzarəti kimi, məmurların çoxu türk olan idarələri il başından so[n]ra olsun milliləşdirmək mümkündür.

Doğru, bunlar həp sabahın, gələcəyin işidir. Lakin bu gələcəyin yavuq və ya uzaq olması bizim qeyrətimizdədir. Gələcəkdəki başaracağımız üçün bugündən başladığımız işlərə ciddi yapışmalyız. Qurduğumuz bünövrə və əsasın sağlam və əmin olmasına bütün güc və hümmətimizi sərf etməliyiz. İştə, əsl muradımız və sözümüzün canı!

Heyf ki, bu lazım hümməti ortada görəmməyiriz. Gördüyümüz bir zad varsa, parlaq vədə, boş söz, uyuşdurucu bir niyyət!

Gördüyümüz işlər, tutduğumuz yol xalqçılığın, xalq istiqlalının tamamilə tərsi! Bu hal isə böylə davam edəmməz. Ciddi çarələr lazımdır.

Bugünün, gələcəyin pozulmaz bir qanunu var: milliləşəmməyən, xüsusi mədəniyyət göstərəmməyən, xalqa doğru gedəmməyən idarələr, hökumətlər davam edəmməzlər. İstiqlalın möhkəm və davamını istəyənlər bu həqiqəti bilib ona görə çalışmalıdır. Bu çalışmaq, hər ziyalı azərbaycanlı üçün bir fəzilət isə Məclisi-Məbusanda əyləşən hörmətli xalq vəkilləri üçün bir borcdur, bir vəzifədir.





Ümidvaram ki, hörmətli vəkil əfəndilər idarələrimizi yaxın gələcəkdə milliləşdirmək məsələsini imdidən nəzəri-əhəmiyyətə alıb ona görə ciddi və fayda verəcək çarələr düşünürlər. Hərçənd, Maarif Nəzarətinin bu uğurda açdığı kurslar var. Lakin, onların bugünkü mahiyyətləri o böyük məsələni həllə kafi deyil.

Bu xüsusda so[n]ra.

*Ömər Faiq [Nemanzadə]*

## DARÜLFÜNUNUMUZUN GÜŞADI, YAXUD MAARİFDƏ İSLAHAT

Sabiq İstanbul Maarif naziri olan mərhum Əmrullah əfəndinin maarif haqqında, "Elm tuba ağacı kimidir, yuxarıdan aşağı doğru enər" söyləmiş olduğunu bir zaman Dərsəadət qəzetələri yazmışdı.

Bunun nə demək olduğuna dair qəzetələrdə bir çox məqalələr yazıldı və buna etiraz edənlər də oldu. Zira məkatib və mədaris [məktəblər və mədrəsələr] təşkilatında tərəqqi aşağıdan yuxarıya doğru olduğu cəhətlə, bundakı tədriciyyət ilk əvvəl ibtidai, sonra tali [ikinci dərəcəli] və sonra ali məktəblər təşkili üsulunu iltizam edir [lazımlı hala gətirir].

Hali-ibtidaidə [ibtidai halda] bulunan bir millət əvvəlcə ancaq ibtidai, sonra tədricən tali, bilaxirə [ondan sonra] get-gedə ali məktəblər təşkil edə bilər. Onun üçün də ibtidai məktəbləri olmayan bir millətin tali məktəbləri olammadığı kimi, tali məktəblərə malik olmayan bir millətin də alisi də bulunammayacağı bir həqiqət.

Elmin yuxarıdan aşağıya doğru enməsi dəxi inkar olunammayacaq bir həqiqətdir. Zira yuxarılıq-aşağılıq nisbi bir keyfiyyət olduğundan, hər bir millətin kəndisinə nisbətən yuxarılıq-aşağılığı vardır. Alim zümrə [təbəqə] bir millətin və yaxud bir cəmiyyətin yuxarı zümrəsi olduğu cəhətlə, elmin digər zümrələrə olan təşmili [yayılması] yenə yuxarıdan aşağı zümrələrə enməsi surəti ilə hüsula gələr. Çünki hali-ibtidaidə bulunan bir millətin də ancaq ibtidai müəllimləri mövcud olammayacağından, onun digər zümrələrinə elm və maarifin intişarı [yayılması] ən yüksək zümrəli olan bu müəllimlər vasitəsilə ola biləcəyi mühəqqəqdir [şübhəsizdir].

Böylə bir hali-ibtidaidə bulunan millətin, madam məlumati-ümumiyyəyə [ümumi məlumata] malik, tali [orta dərəcəli] təhsil görmüş və yaxud elmi ixtisaslarda bulunaraq təhsili-ali əldə etmiş müəllimləri və elmi mütəxəssisləri yoxdur, açmış olduğu məktəbin ismini istər tali və istər ali qoysun, əldə mövcud olan müəllimləri vasitəsilə yalnız təhsili-ibtidai əldə edilə biləcəyi şübhədən varəstədir [şübhədən uzaqdır].

Nasıl ki, bizim də milliləşdirməkdə olduğumuz edadi məktəblərimizdə əksəriyyətlə müəllim və müəllimələrimiz türkcə yalnız oxumaq və yazmaq bildikləri və bəzən də yalnız çocuqlarının əsamisini [adlarını] ancaq yazmağa müqtədir bulunmaqda olduqları, müdir və

müdirələrimiz isə əksəriyyətlə yazmaq, oxumaq deyil, türkcə qonuşmasını belə bilmədikləri cəhətlə, bu kimi milliləşmiş olan məktəblərdə tali ismi ilə oxunacaq dərslər təhsili-ibtidaidən başqa bir şey olmadığı məlumdur.

Onun üçündür ki, məmləkətimizdə ali darülfünun [universitet] açılmaq istənildiyi vaxt, məkatibin tədriciyyətinə qənaət saiqəsilə [məktəblərin ibtidaidən aliyə doğru tədricən tərəqqi etməli olduğuna inandıqları səbəbindən] bir çox zəvat [şəxslər] milli məkatibi-taliyyəmizin [orta dərəcəli məktəblərimizin] olmadığı və olmasına da şimdilik imkan bulunmadığından bəhslə, darülfünunun açılmaması tərəfdarlığını iltizam edirdilər [tərəfini tuturdular].

Bununla bərabər, elmin aşağı zümrələrə yalnız yuxarı elmi zümrələr vasitəsilə enməsi həqiqəti də qabili-inkar deyildir.

Məkatib və mədarisin üsuli-təşəkkülatı [təşkil edilmələri qaydası] etibarı bəzi zəvatın bu kimi iddialarını haqlı göstərirsə də, elmin daima (tuba kimi) yuxarıdan aşağıya enməsi həqiqəti də bizə ali darülfünun məsələsini düşünməyə haqq və səlahiyyət verir.

Böylə ki, hər surətlə olursa-olsun, tali məktəb ikmal etmiş olan tələbələrimizin təhsili-aliyyədən məhrum qalmamaları və məmləkətimizdə elmi mütəxəssislər yetişdirilməsi üçün ali darülfünunun güşad edilməsinə bəhəməhal [hər bir halda] lüzum vardır.

Zira yalnız bu darülfünun vasitəsilə məmləkətimizdə hər halda yuxarıdan aşağı doğru bir çox elmlərin enməsi ilə irəlidə məkatibi-taliyyəmizi təsis və təşkil edə biləcək müəllim və müəllimələr yetişdir[il]ə biləcəyi və çocuqlarımızı bugünkü hali-cəhalət-iştimaldan [cəhalətə qərq olmuş vəziyyətdən] xilas edə bilməsini və (tuba kimi) yuxarıdan aşağıya doğru enə biləcək tərəşşühatıyla [sızıntılarıyla] hürriyyəti-milliyyəmizin təsisini və millətimizdə məfkurə vəhdətinin təsbitini [möhkəmlənməsini] təmin eyləməyə müvəffəq ola biləcəyiz. Biz də bunu ümid edir və darülfünunumuzun güşadını [açılışını] təbrik eyləriz.

*Talıbzadə Yusif Ziya*

## HÜMMƏT LAZIMDIR

“Azərbaycan” cəridəsinin [qəzetinin] 18 təşrini-sani 324-ncü nömrəsində ixtisarən Qazax mahalında İrəvan quberniyası qaçqınlarının halından məlumat vermiş idik.

Verdiyimiz məlumat təşrini-saninin 18-indən əvvəl verilmiş idi, fəqət dərci iki-üç gün təxirə düşmüş idi. Təşrini-saninin 16-ncı günü təsadüfən Qazaxa getmiş idik.

Burada Firidun bəy Köçərli cənabları ilə söhbətimiz miyanında [arasında] İrəvan qaçqınlarının böyük müsibət və fəlakətlərə uğradıqlarını duyduq. Bütün mənasıyla bu binəvalar soyuqda qalmışdır, aclarından və bəzi xəstəliklərin tüğyanından sabiqdə ərz etdiyimiz kimi çocuqlar, qarılar və ixtiyarlar gündən-günə ölməkdədirlər. Əhvalları tərifə gəlməyən qədər fənadır.

Bu zillətzədələrin haqqında general-qubernator Əmir xan Xoyski həzrətləri ilə görüşüb, lazımi məlumat[ı] rəsmi





olaraq almağı vəzifədən sandığımız üçün xidmətlərinə vardıq. General-qubernator cənablarının izahatından Qazax mahalında hələlik siyahıya girmiş 9 min mühacir var. Siyahıya girməyənlərdən maəda [başqa], bunların sayı get-gedə artmaqdadır. Şimdiyə qədər Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən [Sosial Təminat Nazirliyindən] həman mühacirlər üçün ancaq 15 min manat pul göndərilmişdir. Səhiyyə Nəzarətindən isə qətiyyən bir yardım görülməmişdir və Səhiyyə Nəzarətinin yadına şu fələkzədələr [bədbəxtlər] bilmərrə düşməmişlər.

Bakıya övdətimizdən [qayıtdıqdan] sonra aldığımız rəsmi məlumatdan hasil bu olur ki, Səhiyyə Nəzarəti ancaq Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin səvabdidi [müvafiq gördüyü] və lazım bildiyi yerlərə yardım göndərir. Anlaşılan bu olur ki, bu iki Nəzarət daha dürüstü Qazax mahalı qaçqınlarına fikir verməmişlər və onları Allaha ismarlamışlar...

General-qubernator cənablarının kəndisi də bu haldan olduqca mütəəssir olduğunu bəyana çalışırdı. Onun əqidəsincə, mühacirlər bu qış axıra qədər deyil, bir ay da davam edəmməzlər. Buna dəlil, milçək kimi ölməyə üz qoyan, insan surətində olan heykəllərdirlər. Şayani-diqqət [diqqətəlayiq] bir şey var ki, bunu hər kəs etiraf edə bilər: Əmir xanın əqidəsincə, mühacirlərə pul verməkdən bir şey hasil olmaz, zira ki, onlara o qədər para veriləmməz ki, kəndilərini idarə edib bir yana çıxa bilsinlər. Onlara verilən cüzi paraya böylə əql heyran qala biləcək qiymətlərə heç şey almaq olmaz.

Onlara imdad yolunun ən gözəli – yeyəcək və geyəcək verməklə bərabər, mənzillərini də təmin etmək lazım gəlir. Pərişan halda ölkəmizə gəlmiş vətəndaşlarımız əlləri əlimizə çatandan sonra daha da pərişan olmağa məhkumdurlar. Bu isə cismimizin ölməyinə, ruhumuzun o qədər yüksələ bilmədiyinə dəlalət edir, deyilmi?

Bizim hökumətdən yardım gəlincəyə qədər bunlar məhv olar deyə məyus olduğumuzu gördükdə Əmir xan həzrətləri:

– Xeyr, bunları böylə də qoymaq olmaz. Fəqət bircə tədbirim var, o da köylərin ağsaqqallarını hüzuruma çağırıb, mühacirləri onlara hələlik dağıtmaqdır [paylamaqdır] və onlara yardım etməyi köylülərdən arzu etməkdir. Əvəzində də mühacirlər köylülərə yardımda bulunar, – dedilər.

General-qubernatorun həqiqət[ən] bir namuslu məmur olduğu üçün hüzura çıxardığı layihə müvəqqəti olsa gərəkdir, həm də naəlaclığın önünü almaq deməkdir. Fəqət biz hökumətimizin buraya diqqətini təkrar cəlb ediriz və hökumətdən vase [əhatəli] tədbirlər aramağı və vüsətli [geniş] dairədə yardımda bulunmağı umuruz.

Bizcə, əvvəl əldə Qazaxda Gəncə və Şamaxıda olduğu kimi xəstə mühacirlər üçün bir xəstəxana təsisi vacib və əlzəmdir.

Xəstələrin halını təmin edəndən sonra ümum mühacirlərin halına ağlamaq gəlir. Buraya qədər məqaləmiz də rəsmi dairələrə müraciət edir və onlardan imdad, onlara çarə aramağa dəvət edir.

Şimdi bunu da etiraf etməliyiz ki, hökumətin tədbir və çarələri o vaxt mühacirləri təmin edə bilər ki, camaa-

tımız əhvalın ağır və kəskin olduğunu dərk edib, bütün ağırlığı çəkməkdən ötrü hökumət ilə bərabər, öz qüvvə, istedad və hissiyyatlarını da qoşarlar. Böylə olmazsa, çarə də zəif, səməri [nəticəsi] də arzu edilən kimi olmaz.

İki ildən ziyadədir bu fələkzədələr erməni millətinin ağır zərbələrinə qatlaşıb, canından, malından, irzindən, namusundan çıxıb, vətən suyuna, baba ocağına həsrət qalıb gəlmişlərdir. Dünkü zəngin bu gün divarlar dibində əlini bizə uzadıb, soyuqdan titrəyə-titrəyə ətmək [çörək] üçün para istəyir. Balası ölüb, annəsi çocuqları ilə bərabər balasını basdıran görmüşlər. Anası soyuqdan, acından ölmüş, balalarını soyuqdan divar dibində kimsəsiz, imdadsız mələşən görmüşlər. Bu axırıncı hadisə Ağstafa mövqifində [stansiyasında] olmuşdur, bizə məmurlar qaçqınların həyatından söylərkən bir qissə [əhvalat] olaraq bəyan etmişlər. Böylə həvadis [hadisələr] çoxdur.

Vətəndaşlar! Axırıncı illərdə milyonlarla yoxdan para qazanan və onun sərxoşluğu ilə məst olan qardaşlar! Böylə günlər hər kəs üçün vardır. Səni tutmuş, qapına pənah gətirmiş din qardaşını, vətəndaşını unutma. O qədər yüksələ bil ki, ayaq altında qalmışlarını soqaqdan yığıb qardaş əlini onlara uzat.

Şayani-təqdir [təqdirəlayiq] Gəncə əhlinin və Nuxa əhlinin təşəbbüsüdür. Onlar kimi hər yerdə camaat para toplamalı, hökumət yardımına kifayət verməməli, zira ki, onlara yardım etməklə, hökumətə də yardım etmiş olarız, onun işini yüngülləşdirəriz. Xülasə, hümmət və genə də hümmət lazımdır.

*Əli Səbri [Qasımov]*

**BAYRAQÇIYA – BAYRAĞA**

Şanlı! Ey ölkəmin ələmdarı,
Bürci-əflaka bayrağın yüksəlt!
Sancmağa düşmənin bəbəklərinə
Aylı-ulduzlu sancağın yüksəlt!

Sənə, ey rayəti-zəfər, bu yetər,
Getdiyin yerdə var fəthi-zəfər.
Çünki yardımçıdır sənə Tanrı
Hara varsan, ora sənə baş əyər.

*Bakı, Mirmahmud Nuri*

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

"Prival komediantov" (komediyaçılar düşərgəsi) nam teatro işlərinə Bələdiyyə İdarəsi tərəfindən baxmağa təyin edilmiş Suxanov nam kəndi vəzifəsində səhlənkarlıq etdiyi üçün Bələdiyyə İdarəsinin 18 təşrini-sani iclasının qərarına məbni [əsasən], xidmətindən əzl edilmişdir [uzaqlaşdırılmışdır].

**Sihhiyyə avtomobilləri**

Bələdiyyə İdarəsinin 1[8] təşrini-sani iclası qərarına məbni, sihhiyyə [səhiyyə-gigiyena] avtomobilləri təmirinə 244.448 manat təxsis edilmişdir [ayrılmışdır].

**Mənzil vergisi**

Yenə Bələdiyyə İdarəsinin 18 təşrini sani iclasında mənzil vergisinin layiqi surətdə yığılmaması məsələsi müzakirə edilmişdir. Məlum olmuşdur ki, məzkur [deyilən] şöbəyə bir neçə yeni xidmətçi təyin etmək lazımdır. Məsələni Bələdiyyə Məclisinə vermək qərara alınmışdır.





**Bələdiyyə İdarəsi və Rus Milli Komitəsi**

Rus Milli Komitəsi Bələdiyyə İdarəsinə müraciətlə rica etmişdir ki, şəhər məktəblərinə qəbul edilməyən məktəbliləri tədris üçün Mariinski ünas [qızlar] məktəbində axşamlar Komitənin ixtiyarına bir qaç sinif verilsin.

Bələdiyyə İdarəsinin 18 təşrini-sani iclasında məsələ müzakirə edilib, sinif verilməsi qərara alınmışdır, fəqət siniflərin təmizlənməsi, mebelinin salamat qalmasının təmini Rus Milli Komitəsi öhdəsinə düşəcəyi şərt qoyulmuşdur.

**Bələdiyyə İdarəsi və Elektrik Cəmiyyəti**

Elektrik Cəmiyyəti Bələdiyyə İdarəsinə müraciətlə məlum etmişdir ki, Cəmiyyətin mərkəzi mövqifi [stansiyası] yerləşmiş Belı-qorod [Ağ şəhər] dairəsində iki su yolu mövcuddur ki, biri Şollar suyuna məxsus, digəri əskidən qalmış Kür suyuna məxsus idi. Şimdi məzkur [deyilən] Kür su yolu xarab olub, gündəngünə dağılmaqdadır. Halbuki Şollar su yolu xarab olarsa, dairə susuz qalaraq mədənlərin yatması, əələlxüsus elektrik mövqifinin dayanmasına səbəb olacaqdır ki, şəhərin də işığı məzkur mövqifdən verilir. Cəmiyyət bir yol əvəzində iki yol çəkilməsini və Kür su yolunun təmir edilməsini rica etmişdir.

**Darülfünunda**

Darülfünun müdiriyyəti Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, Darülfünun tərəfindən məmaliki-əcnəbiyyədən [xarici ölkələrdən] alınmış zərrəbinlər [böyüdücü şüşələr, mikroskoplar] bir-iki aydan sonra fəqət Bakıda alına biləcəkdir, halbuki hal-hazırda zərrəbinlərə böyük ehtiyac hiss edilməkdədir.

Binaənileyh [ona görə], Darülfünuna bir qədər zərrəbin verilməsi rica edilmişdir.

**Marka vergisi**

Elektrik Cəmiyyəti Bələdiyyə İdarəsinə məlum etmişdir ki, zavoda buraxılan su isçotlarından [hesablarından] marka vergisi alınması haqqında sənədlərin üzərində heç bir əlamət olmayır. Halbuki qanun üzrə, marka vergisi alınmalıdır. Cəmiyyət məsuliyyəti üzərinə götürmək istəmədiyindən, gerbovı vergi alınmasını göstərəcək əlamət yapışdırılması ilə verginin nisfinin [yarısının] Cəmiyyət hesabına edilməsini rica etmişdir.

**Tətil ətrafında**

"Russkoye tovarişestvo" neft cəmiyyəti mədənləri müdiriyyəti Məsai Nəzarətinə [Əmək Nazirliyinə] məlum etmişdir ki, elektrik işığı kəsilməsindən naşi [ötrü] mədənlər dayandığından, fəhlələri xidmətdən çıxarmaq məcburiyyətində qalmışdır.

Məsai Nəzarəti Baş Məsai Müfəttişinə təklif etmişdir ki, təcili surətdə xidmətçilərin geri qəbulu və tətil günü işləmək istəyən fəhlələrin bir günlük məvaciblərinin verilməsi üçün lazımi tədabir ittixaz etsin [tədbirlər görsün].

**Bədbəxtanə hadisatdan zərərdidə olanlara maaş**

Məsai Nəzarəti tərəfindən mədən dəvairində [mədənlər dairəsində] çalışan fəhlələrə bədbəxtanə hadisat nəticəsin-

də maaş təyin etmək haqqında bir məruzə tərtib verilib, Vükəla Şurasına təqdim edilmişdir.

Manatın qiyməti düşdüyündən naşi, Məsai Nəzarəti 1917-nci sənədə olan maaşın 20 dəfə artırılması, 1918-nci sənə hadisələrinin 5 dəfə və məzkur [deyilən] sənənin təşrini-əvvəl [oktyabr] 11-nədək olanlara 3 dəfə və 1919-ncu [sənənin] 1 yanvarınadək olanlara 2 dəfə artırmağı təklif etmişdir.

Bu layihəyə məbni [əsasən], maaş layihə təsdiqi günündən etibarən verilməlidir.

Maaş artırılması müvəqqəti olaraq yarım sənə davam edəcəkdir. Məsələlərə baxılması Nəzarətin layihəsinə məbni, məhkəmə və Məsai Müfəttişliyinə mühəvvəl edilir [tapşırılır].

Nəzarət layihəni bir mədən dairələri fəhlələri deyil, dövləti və xüsusi müəssisə fəhlələrinə də təşmil [şamil] etmək ehtimalındadır.

**Para qaçırılması**

Təşrini-saninin 24-ndə İran təbəəsi Əliəkbər Abdulla oğlu polis idarəsinə xəbər vermişdir ki, Azovsko-Donski Bankdan iki dəstə para, birisi 70.000 manat və o birisi 30.000 manat alıb mizin üstünə qoyaraq, tanışlarından bir nəfəri görüb onunla söhbət etdiyi zaman bir nəfər naməlum [şəxs] 30.000 manatlıq dəstəni oğurlamışdır. Oğrunun tövqif edilməsi [tutulması] üçün təşəbbüsat edilir.

**Parlaman üzvünün əzli**

Daxiliyyə nazirinin əmrilə Bakı qubernatoru Göyçay qəza qaimməqamına [qəza rəisinə] xəbər vermişdir ki, Azərbaycan Cümhuriyyəti Parlamanına Göyçay qəzasından intixab edilmiş [seçilmiş] Hacı Hüseyn Əfəndizadə aldığı məzuniyyətdən övdət etmədiyinə [qayıtmadığına] və bu xüsusda Parlamana bir məlumat vermədiyinə cəhət Parlaman üzvlüyündən əzl edilmişdir. Buna görə Göyçay qəzasından Parlamana yeni bir üzv intixab edilib göndərilməyi lazım gəlir.

**Qaçqınlara mənzil köməyi**

Verxni-Naqornı küçədə 114 nömrəli evin sahibi Balaxana əhli Məşhədi Abbasqulu Mədədzadə cənabları noyabrın 19-nda Bakı vağzalına varid olmuş [gəlmiş] Qarsdan gəlmə qaçqınları görmüş, onların yersiz qalmalarına və pərişan hallarına ürəyi sızlamış. Binənileyh [ona görə], Məşhədi Abbasqulu bunların suzişli [ürək dağlayan] halını gedib Cəmiyyəti-Xeyriyyəyə xəbər vermiş və Balaxanada öz mülkündə vaqe altı ədəd böyük otağı, bu kimi qaçqınlardan altmışdan yüz nəfərə qədərini o otaqlarda yerləşdirmək üçün Cəmiyyəti-Xeyriyyə ixtiyarına buraxdığını bildirmişdir.

Bundan əlavə, Məşhədi Abbasqulu bu kimi qaçqınlarımızı İrandan gəlmə İran fəhlələri əvəzinə mədənlərdə işlətmək üçün iş verilməsi uğrunda lazımi məqamlarda çalışmasını da Cəmiyyəti-Xeyriyyədən ayrıca təvəqqe və ricada bulunmuşdur.

Məşhədi Abbasqulu Mədədzadənin bu hümməti başqa həmiyyət sahiblərimizə də nümunə olmalıdır.

*M. B.*

**Mart hadisatı haqqında bir cədvəl**

Şamaxı qəza qaimməqamı Bakı qubernatoruna keçən 1918-nci sənə Mart hadisatında köylərdə təhriq edilən [yandırılan] evlərin ədədi xüsusunda böylə bir cədvəl göndərmişdir:

1) Şamaxı şəhərində 577 ev;
2) Navahı köyündə 450 ev;
3) Rəncbərdə 500;
4) Qubalıbalaoğlanda 176 ev;
5) Meynimanda 162;
6) Mərəzədə 256;
7) Sündüdə 263;
8) Mərzəndiyədə 256;
9) Naburda 200;
10) Qırbançıda 135;
11) Ərəbşahverdidə 110;
12) Ərəbşalbaşda 228;
13) Ərəbqədimdə [50];
14) Yenikənddə 20;
15) Muğanlıda 25;
16) Alpoutda 20;
17) Osmanbəylidə 20;
18) Cabanıda 60;
19) Əngəxaranda 50;
20) Gəgəlidə 200;
21) Ağsuda 50;
22 və 23) İki Nügədi köylərində 70;
24) Çarxanda 110;
25) Kalvada 280;
26) Dilmanda 152;
27) Mədrəsədə 400;
28) Gürcüvanda 160;
29) Meysəridə 60 və
30) Saqiyanda 40 ev təxrib edilmişdir.

Bu cədvəl üzrə Şamaxı qəzasında bir şəhər və 29 köydə 5080 ədəd ev təxrib edilmişdir.

## Hadisat

**Cəsur oğrular**

İşbu təşrini-saninin 24-ndə axşam saat 6-da Telefonnı dalanda nömrə 1 Aka Sergeyeviç Saakovun evinə 5 nəfər naməlum gənclər daxil olub, öldürmək hədəsiylə 4900 manat nağd para, 8000 manatlıq kağız və 53050 manatlıq ev əşyası, cümlətanı 65950 manatlıq götürdükdən sonra ev sahibini və qızını bir evə salaraq qapını bağlayıb getmişlərdir.

Bədəfkarların [cinayətkarların] və əşyanın bulunması üçün tədabir ittixaz edilmişdir.

**Meyit**

Ayın 24-ndə səhər saat 6-da 7-ci Qanlıtəpə və Budaqovski küçələrin küncündə naməlum bədəfkarlar tərəfindən öldürülmüş bir qadın meyiti dərədən bulunmuşdur. Meyitdə olan əlamətlər bunun boğulmuş olduğunu göstərir.

**Xəzinədarın talanı**

Təşrini-saninin 24-ndə Nobel qardaşları şirkətinin xəzinədarı polis idarəsinə xəbər vermişdir ki, saat 2 radələrində xidmətçilərə maaş vermək üçün götürdüyü 93500 manat paranı Kislotnı küçənin küncündə 3 nəfər müsəlləh bədəfkarlar [silahlı cinayətkarlar] alıb, qaib olmuşlardır.

İstintaqdan bədəfkarların Əli və Ağa Kazımov qardaşları olduğu məlum olmuşdur. Bunların tövqif edilməsi [tutulması] üçün təşəbbüsat edilir.

* * *

Ayın 24-ndə kərpic emalatxanası "Atlas"ın xidmətçisi Danil Orlyakovun tapança ilə müsəlləh [silahlanmış] bədəfkarlar daxil olub, öldürmək hədəsilə 3748 manat 25 qəpik nağd pul və 10700 manatlıq əşya götürüb qaçmışlardır. Oğurlanan pulun 2699 manat 25 qəpiyi "Atlas" şirkətinindir.

Bu işdə Kazımov qardaşları məznun [şübhəli] olaraq, tövqif edilmələri üçün təşəbbüsat edilməkdədir.

**Təzəpirdə**

Keçən günlərdə, təşrini-saninin 21-ndə Təzəpir məscidi həyətində Könüllü yardım alayı əsgərləri yağmurun yağmağına və soyuğun şiddətlənməyinə baxmayaraq, təlim etməkdən ötrü toplanmışlardı. Könüllü əsgərlər, zabitlərinin gəlməklərini gözlədiyi kimi, yağışın qabağında da təlim etməkdə davam edirlərdi. Bə'də [sonra], zabit əfəndi ilə bərabər, çalışqan cavanlardan Hüseyn Mirzəcamalov cənabları daxil olan kimi, könüllü əsgərlər əsgəri [hərbi] salam verdilər.

Sonra Mirzəcamalov cənabları könüllü əsgərləri ətrafına toplayıb, işbu nitqə başladı:

*"Mənim əziz qardaşlarım! Sizin vətən yolunda böylə canfədakaranə bir surətdə çalışıb silaha sarılmağınızı təbrik edirəm. Siz öz vətəninizi alçaq düşmənlərdən müdafiə edib, vətəninizin övladlarını ayaqlar altında tapdalatmamaq üçün canfədakaranə bir surətdə mühafizəyə çalışarsınız ki, ta gələcək övladlarınız da sizləri şərəflə yad etsinlər!*

*Qardaşlarım! Siz gərək öz məmləkətinizi layiqincə tanıyasınız və biləsiniz ki, nədən ötrü silaha sarılıb və hansı vətəninizi müdafiə edəcəksiniz? Həmin bu xəritədə (xəritəni göstərir) sizin vətəniniz göstərilir və bu xəritədən anlaşılır ki, sizin vətəniniz haradan harayadır.*

*Həman bu vətəninizə alçaq düşmənlər sahib olmaq istəyirlər. Onlar müdam çalışırlar ki, bizi məhv və tələf edib, vətənimizi xarabaya döndərsinlər.*

*Qardaşlar! Həman silahınızla gözəl vətəninizi düşmənlərdən dəf edib, gələcək övladlarınızın rahat yaşamasına səbəb olasınız.*

*Sizin şərəflə din və vətən uğrunda can fəda etməyə hazırlığınız şübhəsizdir ki, vətənimizi düşmənlər əlinə verməz!*

*Əmin olunuz ki, şərəflə ölməyinizi gələcək nəsilləriniz unutmazlar. Həman şərəflə ölməyinizi tarixlərin səhifələrində rəhmətlərlə yad edərlər."*

Sonra Mirzəcamalov cənabları ümum islam millətlərinin bir fikirdə və bir məqsəddə olduğunu və bu yolda həman bəslədiyi məqsədlərinə necə çatmaqlarını müfəssəl surətdə söylədiyi kimi, hökumətin də nədən ibarət olduğunu və əhalinin də hökumətin qoyduğu qanunlarına tabe olub və nizam-asayişi saxlamaqlığını bəliğ [səlis] nitqlərilə bəyan etdi. Əlhasil, bu kimi siyasi, tarixi, ictimai və nəsihətamiz sözlər söyləyib, "Yaşasın vətən və vətən uğrunda fədakar ərlər" deyib, əsgərlər tərəfindən alqışlandı.

Mirzəcamalov cənabları hər cümə gəlib bir neçə saat danışmağını söyləyərək, xudahafiz deyib getdi. Sonra əsgərlər zabitləri ilə bərabər şərqi oxuya-oxuya küçələri gəzişməyə başladılar...

Şimdi mən də səmimi-qəlbdən deyirəm ki:

Yaşasın Azərbaycan və vətən yolunda çalışan arxadaşlarımız!

Yox olsun vətənimizə sahib olmaq istəyən alçaq və xain düşmənlər!

*Könüllü nəfərlərindən:*
*Məhəmmədəli (Tabaqçı) Əsədullazadə*





**BİRJADA**

Kerenski minlik 850-1020 manata qədər, 250-lik kəndi qiymətindən 12 faiz və xırda 25 faiz əskikdir.

Nikolay 5 yüzlüyü 800-1475 manata qədər, yüzlüyü 200-290 manata qədər və xırdası 50-85 faizə qədərdir.

Türkiyə kağız lirəsi 215 manata və Zaqafqaz bonu min manatı 35 manat fəzlədir.

Türkiyə altun lirəsi 1015 manat, imperial 790 manat, altun onluq 1190 manat və Avstriya altunu 2275 manatdır.

Gümüş manat 93 manat və xırda gümüş para 28 manatdır.

Bakı bonunun min manatı İranda 3 tümən 4 qran olmuşdur.

Susinin topu 1055 manata gedir.

**FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR**

**"Müsavat"da**

**Avtomobil zavodunda**

Azərbaycan Hökumət Avtomobil zavodunda starşina vəzifəsini ifa edən və indi də xidmətindən əzl edilmiş [qovulmuş] Əsədulla Şükür oğlu tərəfindən Türk Ədəmi-mərkəziyyət firqəsi "Müsavat"ın Müsalihə-Mürafiə [Məhkəmə və Barışıq] şöbəsinə zeyldəki ərzi-hal [aşağıdakı ərizə] varid [daxil] olmuşdur:

*"Kamali-ehtiramla Müsavat firqəsinə yazıb məlum edirəm ki, noyabrın 14-də məni qulluqdan kənar ediblər. Səbəbi də budur ki, zavodun mexaniki, zaveduşi və prikazçiki zeyldəki şeyləri satıblar, mən də hökumətə məlum edib, polis tərəfindən hamı şeylər tutulubdur. Şeylər bunlardır:*

*4 ədəd avtomobil motoru, 7 avtomobil çarxı, 9 ədəd resor, 22 ədəd vərəq dəmir, 7 ədəd radiator, 3 ədəd kaski, 4 ədəd pakrışka (örtü), 2 ədəd rol (sükan), 1 ədəd kamer."*

"Müsavat"ın Müsalihə və Mürafiə şöbəsi bu ərzi-hal haqqında və Əsədulla əfəndinin geri xidmətə qəbul edilməsi üçün lazımi təhqiqata başlamışdır.

**Könüllü fəhlə**

Sabiqdə BORN [Bakı Rus Neft Cəmiyyəti] 69-cu mədənində çalışmada olan Ağababa Rza oğlu nam bir fəhlə "Müsavat"ın Müsalihə-Mürafiə [Məhkəmə və Barışıq] şöbəsinə müraciətlə bəyan edir ki, 4 ay bundan qabaq xidmətdən çıxıb könüllü dəstəsinə daxil olmuşdu və Lənkəran işğalında dəxi iştirak etmişdi. İmdi ailəsinin müavinətə möhtac olduğundan könüllü ştabı tərəfindən azad edilmişdir ki, sabiq xidmətinə girsin. Fəqət mədən müdiri Cavad ağa namında bir mühəndis onu xidmətinə qəbul etməyir. Müsalihə-Mürafiə şöbəsi bu barədə mədən müdiriyyətinə müraciət etmişdir.

**Xəstə fəhlə**

Lazarev Balaxana dairəsi mədənində çalışan Əliəsgər Əli oğlu nam fəhlə xəstə olduğu və mədən müdiriyyəti onun müalicəsini dəröhdə etmədiyi [öhdəsinə götürmədiyi] ilə bərabər xidmətindən də əzl etmək [qovmaq] istədiyini "Müsavat"ın Mürafiə-Müsalihə şöbəsinə xəbər vermişlər. Şöbə bu barədə lazımi tədbirlər ittixaz etmişdir [tədbirlər görmüşdür].

**Firqə qurultayı**

2-6 dekabrda vaqe olacaq firqə qurultayına kənd şöbəsi tərəfindən Yusif İbrahimli intixab edilmişdir [seçilmişdir].

Tağıyev fabrikasından:

1)Yusif Ziya Talıbzadə

2) Əsədulla Məhəmmədov

3) Hilal Bağırzadə

4) Səfər Qurbanov

5) Abbasəli Mahmudov

Məşqətə [Maştağa] kənd şöbəsi tərəfindən:

1) Kərbəlayı Salman

2) Məhəmmədhəsən Şeyxməhəmməd oğlu

"Müsavat"ın Qara şəhər şöbəsi tərəfindən:

1) İslam Süleymanzadə

2) Əmən Hüseynzadə

3) Mehdiqulu Tağızadə

4) Qəhrəman Mirzəzadə

"Müsavat"ın Ağ şəhər şöbəsi tərəfindən:

1) Sabit İbrahimli

2) Rza Zaki

3) Həsənəli Dünyamalı oğlu

Suraxana şöbəsindən:

1) Piri Nurizadə

2) Hacıbala Əlizadə

3) Səlimxan Əsgərzadə

Musa Nağıyev mədən dairəsi tərəfindən:

1) Nadir Kazımzadə

"Müsavat"ın Sayad Xızı şöbəsi tərəfindən:

1) Molla Əliəşrəf Müəzzinzadə

Balaxana kənd şöbəsi tərəfindən

1) Həsənağa Ağazadə

2) Şirmirzə Babazadə

3) Novruzəli Baxşızadə

"Müsavat"ın Xanqışlaq şöbəsi tərəfindən zeyldəki [aşağıdakı] şəxslərin seçildikləri zənn olunur:

1) Məhəmmədzadə Mirzəbala

2) Seyidhüseyin Haşım

3) Nurməhəmməd Nurizadə

**Cəmiyyəti-Xeyriyyədə**

**İanə**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə qaçqınlar nəfinə [xeyrinə] olaraq Mürsəl Muxtar oğlu 325 manat ianə vermişdir.

**Buxara mühacirləri**

Tamojna məscidi cənbində [nəzdində] olan 21 nəfər Buxara mühacirlərinə bilet və yol kirayəsi verilib, Həsənqulıya göndərilmələri üçün Cəmiyyəti-Xeyriyyə tərəfindən təşrini-saninin 24-də Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] göndərilmişdir.

**Qaçqınlar**

7 nəfər Dərbənd qaçqınını Yalamaya, 12 nəfər İrəvan qaçqınını Batuma və 1 nəfər türkü İzmirə göndərmək üçün Cəmiyyəti-Xeyriyyə bunlara bilet və yol xərci verilmək üçün Ümuri-Xeyriyyə Nəzarətinə göndərmişdir.

**200 arşın ağ**

Qaçqınlar nəfinə [xeyrinə] cəbə ianəsi toplanılması üçün 200 arşın ağ lüzumu olduğundan Cəmiyyəti-Xeyriyyə Ticarət, Sənaye və Ərzaq Nəzarətinə müraciətlə Nəzarətdən 200 arşın ağ verilməsini rica etmişdir.





**Qaçqınlara odun**

Cəmiyyəti-Xeyriyyə qaçqınlar üçün 3 sajın odun verilməsi üçün Ziraət Nəzarətinə [Əkinçilik Nazirliyinə] müraciət etdikdə, Nəzarət qaçqınlar üçün məccanən [pulsuz] 3 sajın odun buraxmışdır.

**İclas**

Təşrini-saninin 23-də Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi idarəsinin Qaçqınlara Müavinət komisyonu iclası təyin edilərək, axşam saat 6-da Hacı Qasımovun sədarəti, Hacıağa Əzizbəylinin katibliyi ilə iclas açılıb, işbu məsələlər həll edilmişlərdir.

1) Qaçqınlar nəfinə [xeyrinə] olaraq sırada olan cəbə ianəsi təxirə salınıb, işbu təşrini-saninin 28-də qaçqınlar nəfinə olaraq "Bir fincan çay" məclisi tərtib edilsin.

2) Çay məclisi Yay klubunda təşkil edilib, klub xalılarla bəzənəcəkdir. Müsamirə [məclis] haqqında türkcə və rusca "Azərbaycan" qəzetələri vasitəsilə ümum əhaliyə elan etməklə bərabər, bəzi əşxasa [şəxslərə] xüsusi dəvətnamələr da göndəriləcəkdir. Məclis günü klubun qapısı önündə bir masa qonulacaqdır ki, ianə etmək xahişi olanlar burada ianə versinlər.

Qonaqlar üçün çay, qəhvə və müsəlman şirniyyatı (paxlava və şəkərbura və qeyrə) hazır ediləcəkdir. Qonaqlardan şam yemək istəyənlər üçün klubun bufetində şam olacaqdır və məclisin qət etdiyi üzrə klub bufetçisi ilə bu xüsusda müzakirə edilməlidir ki, o gecə şamdan hasil olan paranın müəyyən bir faizini qaçqınlar nəfinə verməklə bərabər, qaçqınlar nəfinə olmaq şərti ilə o gecə yeməklərin qiyməti də bir qaç faiz artırılsın. İclasın qərardadı ilə şirniyyat məsələsi Əliheydər Babayevə və Mirzə Məhəmməd Əliyevə həvalə edilməklə, iclasa xitam verildi.

**AZƏRBAYCANDA**

**Gəncə müsəlman sənətkarları**

Sənət nöqteyi-nəzərindən nə qədər geri qaldığımız bəllidir. Bu gün sənətkar azlığından dəmiryollarımızın çox məmuru əcnəbilərdən ibarətdir. On beş sənə əvvəl məstçi, dərzi və çəkməçi kimi kiçik sənətkarlar da Gəncədə kafi miqdarda mövcud deyildi. Az zamandır ki, sənət bir az tərəqqi etmiş, bir taqım gənclərimiz də əsgərlik qorxusundan dəmiryol məmuriyyətlərinə girmişlər. Bəziləri də poçtalarda xidmət edirlər.

Bunlarla bərabər, son zamanlar Gəncədə mövcud müsəlman məstçi, çəkməçi və dərziləri öylə bir yol təqib edirlər ki, bu yol onları uçuruma sürükləyə bilər. Əcnəbi ustalarının 500 manata tikdiyi bir dəst paltarı müsəlman dərziləri 1000 manata tikməyirlər. Müsəlmanların 150 manatdan əskiyə vermədikləri məstləri ermənilərdən 90-100 manata almaq mümkündür. Çəkməçilər də arxadaşları kimi. Buna binaən [buna görə], bütün müsəlmanlar kəndi sənətkarlarını buraxaraq xeyri başqa millətlərə verirlər.

Bir möhtəkirə vardım. Bir cift ingilis potinini 1500 manata dedi. 2 min manata xidmət etdiyimdən, alammadım. Çünki 500 manatla 1 ay kəndimi idarə edəmməyəcəkdim. 5-6 gün keçmədi, təkrar vardım, 1500 manat təqdim et-

dim. Potinlərin birisini almaq istədim. Paranı tez geri təqdim edərək, bu gün 2000 manatdır dedi. Heç bir söz söyləməyərək dişarı çıxdım.

5 gün içərisində bir şeyin üzərinə 500 manat artırırlar. Əcəba bunun sonu nasıl olacaq? Möhtəkirlərin çarəsini bulammam. Lakin Gəncə Sənətkarlar İttifaqının nəzəri-diqqətini cəlb ilə xeyrimizin başqalarına axmaması üçün bu yolda tədabirdə bulunulmasını təmənna edirəm.

*Davud*

**Quldurlarla mübarizə**

Maliyyə Nəzarətinin nəzəriyyatına məbni [əsasən], Cümhuriyyət daxilindəki quldurlarla mübarizə etməkdən ötrü hüdud dairəsində sərhəddarlar təşkili ilə bərabər, məhəlli [yerli] qəza polisləri və qitəati-əsgəriyyə [hərbi hissələr] yerləşdirilməsi lazımdır.

**Yolun mühafizəsi**

Bakı qubernatoru Bakı-Şamaxı yolu mühafizəsi üçün yolun bir para yerlərində mühafizə məntəqələri təşkili ehtimal edilməkdədir. Böylə məntəqələr Mart hadisatı zamanında dağılmışdır.

Məsələn, Şaravil məntəqəsinin təcdidi [yenilənməsi] üçün xüsusi komisyonun məlumatına nəzərən 70 min 994 manat sərf etmək lazımdır. Beləliklə, yolun mühafizə edilərək gedişi-gəlişi tənzim edilə biləcəkdir.

## GÜRCÜSTAN XƏBƏRLƏRİ

Təşrini-saninin 21-dən etibarən, Tiflis şəhərinin bütün komissariatlarında Tiflis şəhərinin boşadılması işləri ilə iştiğal edən [məşğul olan] təftiş komissiyaları işə şüru etmişdirlər [başlamışdırlar]. Əhalinin siyahısına ev sahiblərinin bəyanatı ilə və komissiyanın ixtiyarındakı məlumatlarla baxılacaqdır. Çıxarılacaq adamların siyahısı komissiya tərəfindən dəvət olunmuş xüsusi acentələr vasitəsilə təhqiq ediləcəkdir. Milis nəfəratı və ələlümum hökumət məmurları siyahıların təhqiq edilməsindən azaddırlar. Hər komissariatdan təxminən 10-15 minə qədər adam çıxarılmalıdır.

**Gürcüstan və İtaliya**

İstanbuldan Potiyə gəlmək üzrə "Anadolu Ferro" namında bir vapor çıxmışdır. Bu vaporda 280 milyon məbləğ qiymətində 40 min dəst əsgəri əlbisə və hərbi mühimmat gətirilməkdədir. Bu mallar "Aymando" və "Marşan" İtaliya firmasına məxsusdurlar. Bu mətalar Genuyada Gürcüstan Hökuməti üçün alınmışdır.

Mən Mirzə Əhməd Abbaszadə elan edirəm bundan irəli ya bundan sonra mənim adıma Yusif Abbaszadə hər kəsdən mal ala ya pul ala, mən cavabdehində deyiləm. Müşarülileyhin [deyilən şəxsin] əbədən [əsla] mənimlə bir əlaqə və rabitəsi yoxdur.

*14081*

**Doktor V. K. Finkelşteyn**

Qulaq, burun, boğaz və cərrahiyyə naxoşluqlarına müalicə edir. Qəbul olunur səhərlər saat 8-dən 9-adək; axşamlar saat 5-dən 7-yədək. Telefon 24-70. Vorontsovski küçə, ev nömrə 4, Parapetin küncündə.

*14052*





**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Doktor C. N. Ləmbəranski**

Daxiliyyə və cərrahiyyə naxoşluqlarına müalicə edir. Qəbul olunur gündüzlər 10-dan 12-yədək; axşamlar 5-dən 7-yədək.

Ünvan: Birjavaya küçə 8, telefon 57-30.

*14040*

**Doktor Mustafa bəy Hacıqasımov**

Xüsusi arvad naxoşluqlarına müalicə edir. Qəbul edir axşamlar saat 4-dən 6-yadək, cümə günlərindən başqa.

Adres: Vorontsovski küçə, nömrə 17. Doktor Qarabəyovun müalicəxanası.

*14034*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*

**İstanbul doktor və bakterioloqu Nazim bəy Hüseynzadə**

Sifilis, terbier, şankr və daxiliyyə naxoşluqları, 914 və 606 müalicələri tətbiq edilir.

Qəbul olunur səhər saat 9-dan 10-adək, axşam saat 6-dan 7-yədək.

Ünvan: Voronsovski küçə, nömrə 17, doktor Qarabəyovun müalicəxanası. Telefon nömrə: 49-87.

*1470*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla ümum əhaliyə elan edir ki, bişmiş çörəyin girvənkəsi 5 rublə 20 qəpikdən ziyadə olmamaq üzrə "Sentrodom"un aşağıda zikr olunan dükanlarında satılacaqdır:

| Hankı polis məntəqəsindədir | Dükanların ədədi | Dükanların ismi | Ünvanları |
|---|---|---|---|
| 1 | 4 | Senrodomun 7 nömrəli dükanı<br>Senrodomun 8 nömrəli dükanı<br>Senrodomun 11 nömrəli dükanı<br>Senrodomun 17 nömrəli dükanı | Bayılda, meydanda, Elektriçeskaya sila qarşısında<br>Birinci Bayıl küçəsi ev nömrə 32<br>Bayılov-Bibiheybət<br>Tamojenaya nömrə 23 |
| 2 | 2 | 2-nci uçastkovı komitə dükanı<br>Sentrodomun 18 nömrəli dükanı | İçəri şəhər: Minarə və Başnya küçələrinin küncü, nömrə 7<br>Zavedenskaya nömrə 18 |
| 3 | 4 | 3-ncü uçastko-vı komitənin dükanı<br>Sentrodomun 3 nömrəli dükanı<br>Sentrodomun 14 nömrəli dükanı<br>Sentrodomun 16 nömrəli dükanı | Gimnaziçeski və Persidski küçənin küncündə 84<br>Aleksandrovski cərgələrdə nömrə 3, mizlərin nömrəsi 24<br>Aleksandrovski cərgələrdə nömrə 1, mizlərin nömrəsi 57<br>Aleksandrovski cərgələrdə nömrə 2, mizlərin nömrəsi 23 |
| 4 | 2 | 4-ncü uçastkovı komitənin dükanı<br>Sentrodomun 3 nömrəli dükanı | 3-ncü Paralelni və Apşeronski küçələrin küncündə<br>Şaxski küçə, konka dayanan yerdə |
| 5 | 2 | 5-nci uçastkovı komitənin dükanı<br>Sentrodomun 4 nömrəli dükanı | Staropoliseyski, nömrə 21<br>Petrovski meydan |
| 6 | 1 | 6-ncı uçastkovı komitənin dükanı | Serkovnı küçə, ... Palatanın qarşısında |
| 7 | 4 | 7-nci uçastkovı komitənin dükanı nömrə 1<br>7-nci uçastkovı komitənin dükanı nömrə 2<br>Sentrodomun 15 nömrəli dükanı<br>Sentrodomun 15 nömrəli dükanı | Telefonnı küçə 12, Vağzalnaya 11<br>Balaxanski və Bolşoy Morskoy küçələrin küncü<br>Telefonnı küçədə Yarmarka meydanında |
| 8 | 3 | 8-nci uçastkovı komitənin dükanı<br>Ermənikənd uçastkovı komitə dükanı<br>Babirovun dükanında | Stanislavski küçə 62<br>Ermənikəndi 6-ncı Naqornı və 8-nci Perevalnı küçələrin küncü<br>Ermənikəndi, 10-ncu Naqornı küçədə |
| 9 | 2 | Sentrodomun 1 nömrəli dükanı<br>Sentrodomun 2 nömrəli dükanı | Balaxanski şose və 5-nci Zavağzalnı küçədə<br>7-nci Zavağzalnı küçə 167 |
| 10 | 3 | 10-ncu uçastkovı komitənin dükanı nömrə 1<br>10-ncu uçastkovı komitənin dükanı nömrə 2<br>Sentrodomun 20 nömrəli dükanı | Qaraşəhər – Körpünün yanında<br>Ağ şəhər – Kaspi yoldaşlarının yanında<br>Qara şəhər 5-nci Zavağzalnı və 5-nci Çernoqorodski küçələrin küncündə |

*İmza etdi nazir müavini Əliyev*
*T-360*






**Diş həkimi**
**S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Diş həkimi**
**A. A. Mirkin**

Dişlərə müalicə olunub və doldurulur. Kauçuk və qızıl üzərində süni dişlər qayırılır. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur: gündüzlər 9-dan 2-yədək; axşamlar 4-dən 7-yədək. Ünvan: Gimnaziçeski küçə, nömrə 164.

*11426*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Doktor İ. M. Bronşteyn**

Xüsusi əmrazi-zöhrəviyyə, dəri və daxiliyyə naxoluqları qəbul edir. Hər gün səhər saat 10-dan 1-ədək; axşam saat 4-dən 7-yədək. Şamaxinka 12, telefon 4-21.

*14003*


***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Dağıstan cəbhələrində**

səh. 546. “Daşlaqar”: Dağıstanda, indiki Serqokala kəndi; Serqokala rayonunun inzibati mərkəzi.

“Boynak”: Dağıstanın Qarabudaxkənd rayonunda, indiki Ullubiyaul kəndi.

“Teymurxanşura”: İndiki Buynaksk şəhəri.

**“Darülfünunumuzun güşadı, yaxud maarifdə islahat”**

səh. 549. Bu yazıda çoxsaylı imla səhvləri vardı; bunları düzəltdik və hər birini ayrıca qeyd etməyə ehtiyac görmədik.

“Tuba ağacı”: cənnətdə bitən, kökü yuxarıda olub, budaqları aşağı doğru sallanan ağac.

“Dərsəadət” (hərfən: “səadət qapısı”): Osmanlı dövründə İstanbul şəhərini ifadə etmək məqsədi ilə işlədilmişdir.

“edadi”: təhsildə ibtidai və orta siniflərdən sonrakı, ali təhsildən əvvəlki mərhələ.

**“Bayraqçıya – bayrağa” şeiri (səh. 552) üçün lüğət:**

ələmdar: bayraqdar

rayəti-zəfər: zəfər bayrağı

“Bürci-əflaka bayrağın yüksəlt!”: “Bayrağını fələyin (göyün) bürcünə yüksəlt!” Burada “bürc” sözü iki mənada işlənmişdir: 1) göydəki ulduz topaları; 2) qala divarları üzərindəki müdafiə qüllələri (bayraq qalanın bürcünə asılır).

**Bakı xəbərləri**

səh. 553. “gerbovı vergi” (yaxud marka vergisi): rəsmi sənədlərə yapışdırılan və vergi ödəndiyini göstərən marka.

səh. 554. “Azovsko-Donski Bank”: Azov-Don Kommersiya Bankı. Rusiya imperiyasının ən böyük kommersiya banklarından biri

olmuşdur. Əsası 1871-ci ildə qoyulmuş, 1917-ci il Oktyabr inqilabından sonra ləğv edilmişdir. Bakı şöbəsi 1916-cı ildə açılmışdı.

"Verxni-Naqornı": Bakıda, indiki Abdulla Şaiq küçəsi.

səh. 555. "böylə bir cədvəl göndərmişdir": siyahıdakı kənd adlarından bəziləri qəzetdə təhrif edilmişdir.

"Osmanbəyli": Şamaxı rayonunda, indiki Sabirli kəndi.

"Gürcüvan": Ağsu rayonunda, indiki Xanbulaq kəndi.

"Saqiyan": Şamaxı rayonunda, indiki Günəşli kəndi.

"Budaqovski küçəsi": Hal-hazırda Bakı şəhərinin mərkəzində, Səbail və Nəsimi rayonları ərazisində yerləşən Rəşid Behbudov küçəsinin köhnə adı. Keçmişdə Budaqovski – Kaspiyski – Leytenant Şmidt küçəsi adlarını daşımışdır.

"Kislotnı": Bakıda küçə; indiki Süleyman Vəzirov küçəsinin bir hissəsi.

**Firqələr və cəmiyyətlər**

səh. 557. "müalicəsini dəröhdə etmədiyi": "müalicəsini" yerinə qəzetdə "müsalihəsini" getmişdir.

səh. 558. "Həsənqulı": Türkmənistanın Balkan vilayətində, Xəzər dənizi sahilində şəhər; indiki Əsənqulı şəhəri.

"cəbə ianəsi": müxtəlif yerlərdə ianə qutuları qoymaqla toplanan ianə.





**Cümə axşamı, 27 noyabr 1919-cu il, nömrə 331**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 4 rəbiüləvvəl sənə 1338. 27 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## ELAN

1919 sənə noyabrın 27-də pəncşənbə [cümə axşamı] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-357*

## MALİYYƏ NƏZARƏTİ TƏRƏFİNDƏN

Azərbaycan Dövləti Əmanət Sandıqları və Xırda Etibar İdarəsi bununla elan edir ki, həmin oktyabr ayının 11-də Parlaman tərəfindən təsdiq edilmiş Azərbaycan Dövləti Əmanət Sandıqlarının Nizamnaməsi mövcibincə, dekabr ayının 1-dən həmin 1919-cu ildən Bakı şəhərində Kolyubakinski və Vorontsovski küçələrin küncündə, Lalayevin evində Azərbaycan Dövləti Baş Əmanət Sandığı açılır.

Azərbaycan dövləti əmanət sandıqlarına qoyulan pullar dövlətin bütün varidatı ilə təmin edilir və hər bir vaxt təhdidatsız [məhdudiyyətsiz] sahiblərinə qaytarılır. Qoyulan pullara ildə 3,6 faiz hesab olunur.

*Ə[li] A[ğa] Həsənov*
*Azərbaycan Dövləti Əmanət Sandıqları və Xırda Etibar İdarəsi müdiri*
*N[əsir] Tağıyev*
*T-365*

## DÖVLƏT TEATROSU

**Azərbaycan Dövləti Teatro heyəti**

Cümə günü təşrini-saninin (noyabrın) 28-də axşam mövqeyi-tamaşaya qoyulacaqdır

**"Əlmənsur"**

Mehdi bəy Hacıbababəyovun tərcüməsi, 6 pərdədə.

Tamaşa axşam saat 8 tamamda başlanacaqdır.

Biletlər drama qiyməti ilə teatrın kassasında satılmaqdadır.

Rejissor A. A. İvanov.

Növbəti rejissor A. M. Şərifzadə.

Rejissor müavini H. B. Şərifzadə.

Qeyd: Möhtərəm tamaşaçılardan rica olunur ki, ikinci zəng vurulduqdan sonra salona daxil olub, hər kəsin öz yerində əyləşsin.

Gələcək tamaşa: Kanuni-əvvəlin (dekabrın) 2-də "O olmasın bu olsun".

Mövqeyi-tamaşaya qoyulmaq üçün hazırlanır: "Ölülər", "Şah Abbas və Xurşidbanu", "Dövləti-bisəmər", "Arşın mal alan", "Qaçaqlar", "Əsli və Kərəm" və "Aşıq Qərib"

*Dövləti Teatro vəkili: M. Ə. Sidqi*
*T-364*